| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 09.01.2002 |
| QEYDİYYAT NÖMRƏSİ | 2 |
| ADI | Kommunal, nəqliyyat və digər xidmətlər üzrə güzəştlərin müavinətlərlə əvəz olunması ilə əlaqədar həmin müavinətlərin vətəndaşlara verilməsi Qaydalarının təsdiq edilməsi barədə |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-01-2002, Nəşr nömrəsi: 01, Maddə nömrəsi: 81) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 09.01.2002 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 080.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 01.07.2011 |

**Kommunal, nəqliyyat və digər xidmətlər üzrə güzəştlərin müavinətlərlə əvəz olunması ilə əlaqədar həmin müavinətlərin vətəndaşlara verilməsi Qaydalarının təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Kommunal, nəqliyyat və digər xidmətlər üzrə güzəştlərin müavinətlərlə əvəz olunmasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli, 613 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Kommunal, nəqliyyat və digər xidmətlər üzrə güzəştlərin müavinətlərlə əvəz olunması ilə əlaqədar həmin müavinətlərin vətəndaşlara verilməsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 9 yanvar 2002-ci il
2

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2002-ci il 9 yanvar tarixli, 2 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Kommunal, nəqliyyat və digər xidmətlər üzrə güzəştlərin müavinətlərlə əvəz olunması ilə əlaqədar həmin müavinətlərin vətəndaşlara verilməsi**

**QAYDALARI**[1]

1. Kommunal, nəqliyyat və digər xidmətlər üzrə güzəştlərin müavinətlərlə əvəz olunmasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 613 nömrəli Fərmanı ~~və "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 yanvar tarixli 514 nömrəli Fərmanının 1.9-cu bəndi~~ ilə müəyyən olunan müavinətlər hərbi qulluqçulara və xüsusi rütbəsi olan əməkdaşlara - onların xidmət keçdiyi orqan tərəfindən *"Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq*~~, "Hərbi qulluqçuların pensiya təminatı haqqında" Azərbaycan Respublikası Qanununa əsasən pensiya alanlara isə - pensiyalarının üzərinə hesablanmaqla müvafiq pensiya təyin edən orqan~~ ödənilir.[2]

~~2. Çernobıl qəzasının nəticələrinin ləğvində iştirak etmiş və həmin qəzadan zərər çəkmiş vətəndaşlara müalicə üçün müəyyən edilən vəsaitin ödənilməsi üçün həmin şəxslər pensiya aldıqları orqana müraciət edirlər. Pensiya təyin edən orqan şəxsin müraciət etdiyi aydan sonrakı ay vəsaitin ödənilməsi üçün ödəniş müəssisəsinə barat vərəqəsi göndərməklə ödənişin həyata keçirilməsini təmin edir. İl ərzində göstərilən şəxsin müraciəti olmadıqda həmin ilin dekabr ayında pensiya təyin edən orqan tərəfindən vəsaitin ödənilməsi təmin olunur.~~

~~3. Şəhid ailəsi üzvləri pensiyaçı olmadıqda aylıq müavinətlər onlara şəhid ailəsi vəsiqəsi və ərizələri əsasında 2002-ci il yanvarın 1-dən, lakin aylıq müavinət almaq hüququnun yarandığı gündən tez olmamaqla, yaşadıqları ərazi üzrə rayon (şəhər) əhalinin sosial müdafiəsi mərkəzləri tərəfindən hesablanır.~~

~~Müraciət edildiyi vaxtdan üç gün ərzində ödəniş müəssisəsinə tapşırıq vərəqəsi göndərilməklə aylıq müavinətin ödənilməsi həyata keçirilir.~~[3]

4. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar tam dövlət təminatında olduqda yaşadıqları müəssisənin müdiriyyəti tərəfindən onların adına şəxsi hesab açılır, hesab haqqında məlumatlar müəssisənin yerləşdiyi ərazi üzrə *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun yerli qurumuna* bildirilir, aylıq müavinət bu *yerli qurumlar* tərəfindən həmin hesaba köçürülür.[4]

5. Məcburi köçkünlərə və məskunlaşmamış qaçqınlara müavinətlərin ödənilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada tənzimlənir.

6. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli, 613 nömrəli Fərmanı ilə müəyyən olunan aylıq müavinətlərdən bir neçəsini almaq hüququ olduqda həmin müavinətlərdən yalnız biri – ən yüksəyi ödənilir.

7. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli, 613 nömrəli Fərmanı ilə müəyyən olunan müavinətlər dövlət büdcəsinin vəsaiti hesabına *"Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq* ödənilir.[5]

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi vasitəsi ilə müavinət alanlar üçün tələb olunan vəsaiti həmin Nazirliyin, digər orqanlardan müavinət alanlar üçün isə həmin orqanların xəzinə hesabına köçürür.

~~Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu mərkəzləşmiş qaydada xəzinədarlıq vasitəsi ilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə hesablaşma aparır.~~[6]

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 17 iyun 2006-cı il tarixli 151 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 6, maddə 578**)
2. 27 fevral 2007-ci il tarixli 40 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 199**)
3. 22 may 2007-ci il tarixli 79 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 5, maddə 549**)
4. 28 noyabr 2016-cı il tarixli **488** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 29 noyabr 2016-cı il, 264, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 11, maddə 1976)**
5. 26 may 2017-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 31 may 2017-ci il, 115, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 998)**
6. 18 oktyabr 2017-ci il tarixli **452** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 21 oktyabr 2017-ci il, 231, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 10, maddə 1914)**
7. 29 may 2019-cu il tarixli **250** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 1 iyun 2019-cu il, 119, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 983)**
8. 5 mart 2021-ci il tarixli **63** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 13 mart 2021-ci il, 56, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 3, maddə 282)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 22 may 2007-ci il tarixli **79** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 5, maddə 549**) ilə "Kommunal, nəqliyyat və digər xidmətlər üzrə güzəştlərin müavinətlərlə əvəz olunması ilə əlaqədar həmin müavinətlərin vətəndaşlara verilməsi Qaydaları"nın 1-ci bəndində "**613 nömrəli Fərmanı**" sözlərindən sonra "**və "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında**" **Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 yanvar tarixli 514 nömrəli Fərmanının 1.9-cu bəndi**" sözləri əlavə edilmişdir.

[2] 17 iyun 2006-cı il tarixli 151 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 6, maddə 578**) ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 9 yanvar tarixli 2 nömrəli qərarı ilə təsdiq edilmiş "Kommunal, nəqliyyat və digər xidmətlər üzrə güzəştlərin müavinətlərlə əvəz olunması ilə əlaqədar həmin müavinətlərin vətəndaşlara verilməsi Qaydaları"na 1-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Kommunal, nəqliyyat və digər xidmətlər üzrə güzəştlərin müavinətlərlə əvəz olunmasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli, 613 nömrəli Fərmanı ilə müəyyən olunan aylıq müavinətlər (bu Qaydaların 3,4 və 5-ci bəndlərində göstərilənlər istisna olmaqla) həmin Fərmanın 1-ci bəndində nəzərdə tutulmuş şəxslərin pensiyalarının üzərinə hesablanmaqla ödənilir.~~

-

27 fevral 2007-ci il tarixli **40** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 2, maddə 199**) ilə "Kommunal, nəqliyyat və digər xidmətlər üzrə güzəştlərin müavinətlərlə əvəz olunması ilə əlaqədar həmin müavinətlərin vətəndaşlara verilməsi Qaydaları"nın 1-ci bəndindən "**, "Hərbi qulluqçuların pensiya təminatı haqqında" Azərbaycan Respublikası Qanununa əsasən pensiya alanlara isə - pensiyalarının üzərinə hesablanmaqla müvafiq pensiya təyin edən orqan**" sözləri çıxarılmışdır.

26 may 2017-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 31 may 2017-ci il, 115, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 998)** ilə "Kommunal, nəqliyyat və digər xidmətlər üzrə güzəştlərin müavinətlərlə əvəz olunması ilə əlaqədar həmin müavinətlərin vətəndaşlara verilməsi Qaydaları"nın 1-ci hissəsinə "**orqan tərəfindən**" sözlərindən sonra "**yalnız nağdsız qaydada**" sözləri əlavə edilmişdir.

29 may 2019-cu il tarixli **250** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 1 iyun 2019-cu il, 119, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 983)** ilə "Kommunal, nəqliyyat və digər xidmətlər üzrə güzəştlərin müavinətlərlə əvəz olunması ilə əlaqədar həmin müavinətlərin vətəndaşlara verilməsi Qaydaları"nın 1-ci hissəsindən **"və "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 yanvar tarixli 514 nömrəli Fərmanının 1.9-cu bəndi**" sözləri çıxarılmışdır.

-

[3] 17 iyun 2006-cı il tarixli 151 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 6, maddə 578**) ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 9 yanvar tarixli 2 nömrəli qərarı ilə təsdiq edilmiş "Kommunal, nəqliyyat və digər xidmətlər üzrə güzəştlərin müavinətlərlə əvəz olunması ilə əlaqədar həmin müavinətlərin vətəndaşlara verilməsi Qaydaları"nın 2-ci və 3-cü bəndləri çıxarılmışdır.

[4] 17 iyun 2006-cı il tarixli 151 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 6, maddə 578**) ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 9 yanvar tarixli 2 nömrəli qərarı ilə təsdiq edilmiş "Kommunal, nəqliyyat və digər xidmətlər üzrə güzəştlərin müavinətlərlə əvəz olunması ilə əlaqədar həmin müavinətlərin vətəndaşlara verilməsi Qaydaları" 4-cü bəndin birinci abzası çıxarılmışdır.

Əvvəlki Redaksiyada deyilirdi:

~~Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar pensiyaçı olmadıqda aylıq müavinət onların və ya qəyyumlarının (himayəçilərinin) yaşayış yeri üzrə rayon (şəhər) əhalinin sosial müdafiəsi mərkəzləri tərəfindən aparılır.~~

28 noyabr 2016-cı il tarixli **488** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 29 noyabr 2016-cı il, 264, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 11, maddə 1976)** ilə 4-cü hissədə "**rayon (şəhər) əhalinin sosial müdafiəsi mərkəzinə**" sözləri "**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun şəhər, rayon şöbəsinə**" sözləri ilə və "**mərkəzlər**" sözü "**şəhər, rayon şöbələri**" sözləri ilə əvəz edilmişdir.

5 mart 2021-ci il tarixli **63** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 13 mart 2021-ci il, 56, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 3, maddə 282)** ilə "Kommunal, nəqliyyat və digər xidmətlər üzrə güzəştlərin müavinətlərlə əvəz olunması ilə əlaqədar həmin müavinətlərin vətəndaşlara verilməsi Qaydaları"nın 4-cü hissəsində "**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında**" sözləri "**Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində**" sözləri ilə, "**şəhər, rayon şöbəsinə**" sözləri "**yerli qurumuna**" sözləri ilə və "**şəhər, rayon şöbələri**" sözləri "**yerli qurumlar**" sözləri ilə əvəz edilmişdir.

[5] 26 may 2017-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 31 may 2017-ci il, 115, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 998**) ilə "Kommunal, nəqliyyat və digər xidmətlər üzrə güzəştlərin müavinətlərlə əvəz olunması ilə əlaqədar həmin müavinətlərin vətəndaşlara verilməsi Qaydaları"nın 7-ci hissənin birinci cümləsinə "**vəsaiti hesabına**" sözlərindən sonra "**yalnız nağdsız qaydada**" sözləri əlavə edilmişdir.

18 oktyabr 2017-ci il tarixli **452** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 21 oktyabr 2017-ci il, 231, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 10, maddə 1914**) ilə "Kommunal, nəqliyyat və digər xidmətlər üzrə güzəştlərin müavinətlərlə əvəz olunması ilə əlaqədar həmin müavinətlərin vətəndaşlara verilməsi Qaydaları"nın 1-ci və 7-ci hissələrində "**yalnız nağdsız qaydada**" sözləri **"Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq** " sözləri ilə əvəz edilmişdir.

-

[6] 17 iyun 2006-cı il tarixli 151 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 6, maddə 578**) ilə7-ci bəndin ikinci abzasında "**Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun**" sözləri "**həmin Nazirliyin**" sözləri ilə əvəz edilsin və üçüncü abzas çıxarılmışdır.